# AZƏRBAYCANIN QƏDİM TORPAĞI İRƏVANIN TARİXİNƏ DAİR KİTAB RESURSLARININ TƏDQİQİ (2020-2022-ci illər)

**Solmaz Sadıqova**
*Sənəd menecmenti kafedrasının dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*
*solmaz_bdu@mail.ru*

**Zərxanım Məmmədova**
*Sənəd menecmenti kafedrasının magistrantı*
*zerxanim1406@gmail.com*

***Xülasə:*** *Məqalə sosial-siyasi elmlər sisteminin mühüm tərkib hissələrindən biri olan tarix elminə və tarix elminin bir qolu olan İrəvan xanlığı haqqında informasiya resurslarının tədqiqinə həsr olunmuşdur. İnformasiya resurslarından bəhs edərkən ilk növbədə ilkin informasiya resursları – yəni kitablar təhlil olunmuşdur. Qeyd olunmuşdur ki, belə informasiya resurslarından biri Azərbaycan dövlətçiliyinin ayrılmaz tərkib hissəsi olan İrəvan xanlığının tarixinə həsr edilmiş ilkin informasiya mənbələridir. Müəyyən bir fəaliyyət sahəsinin, xüsusən də elmin sənəd – informasiya kütləsinin formalaşmasında əsas yeri ilk olaraq, ilkin sənəd informasiya mənbələri tutur. Azərbaycanda İrəvan xanlığına dair ilkin mənbələrin keçdiyi tarixi inkişaf yoluna nəzər saldıqda bu mənbələrin daha çox intensiv axını respublikamızın müstəqilliyinin yenidən bərpasından sonra artmışdır. Azərbaycanın qədim torpaqlarından olan İrəvana həsr edilmiş bir sıra ilkin informasiya mənbələrinin təhlili verilmiş, daha çox kitablara üstünlük verilmişdir. 2020-2022-ci illər ərzində çap olunmuş İrəvan xanlığına dair kitab resursları tədqiqat obyekti olaraq araşdırılaraq belə bir nəticəyə gəlinmişdir ki, nəzərdə tutulan dövrdə bir çox tarixçilər bu sahəyə dair çox sanballı və əsaslı əsərlər yaratmışlar. Bu əsərlərin çox qismində erməni tarixçiləri və yazarları tərəfindən təhrif olunmuş bir çox faktlar dəqiqləşdirilərək əyani şəkildə şərh edilmişdir. Məqalədə göstərilən dövrdə çıxan bütün kitablar əhatə oluna bilməsə də, bu dövr üçün daha çox qiymətli olanların təhlili geniş və dolğun şəkildə əks etdirilmişdir.*

***Açar sözlər:*** *Sosial-siyasi resurslar, İrəvan xanlığı, ilkin informasiya mənbələri, sənəd axını, informasiya təminatı*

**Giriş.** Sosial-siyasi ədəbiyyat sosial-siyasi elmlərin inkişafı ilə əlaqədardır. Sosial-siyasi elmlər SSRİ dövründə elmi-tədqiqat müəssisələri, idarə və təşkilatları əsasında öyrənilib tədris olunurdusa, hal-hazırda müstəqillik şəraitində yeni istiqamətdə öyrənilir. Sosial-siyasi elmlər dəqiq və texniki elmlərdən fərqli olaraq cəmiyyətin yeniləşməsi, inkişafı ilə əlaqədar olaraq dəyişir. Sosial-siyasi ədəbiyyatın əsas fərqli cəhətlərindən biri odur ki, cəmiyyətdə olan yeniləşmə sosial-siyasi ədəbiyyatın məzmununa da təsir göstərir. Ona görə də sosial-siyasi elmlər üzrə ədəbiyyatın məzmunu dəyişdikdə sosial-siyasi biblioqrafiyanın yeni əsasları üzrə yaradılması da lazım gəlir. Sosial-siyasi ədəbiyyatın yaradılması qeyd etdiyimiz kimi, sosial-siyasi elmlərin inkişafı ilə əlaqədardır. [10, s.7]



**Məsələnin qoyuluşu.** Bu gün Azərbaycan elminin qarşısında duran mühüm məsələlərdən biri məhz Azərbaycan xalqının yarandığı gündən bu günümüzə qədər keçdiyi tarixi yolu sosial-iqtisadi, tarixi problem istiqamətində tədqiq edib araşdırmaqdır. Xüsusilə araşdırılacaq məsələlər arasında dövrün ağır şərtlərindən, siyasi rəhbərliyin etinadsızlığından parçalanaraq başqa ölkələrə verilmiş əzəli və əbədi torpaqlarımızın bir zamanlar Azərbaycana məxsusluğunu sübuta yetirilməsi önəmli yer tutur. Bu baxımdan, erməni qəsbkarları tərəfindən işğal və talan edilməmişdən əvvəl Azərbaycana məxsus olan Qərbi Azərbaycan torpaqlarının sosial-iqtisadi həyatı və dövlət quruluşunun tədqiq edilməsi təhrif olunaraq saxtalaşdırılmış faktlara, məsələlərə aydınlıq gətirmək baxımından dəyərlidir. Ən vacib yerdə isə, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış sənədlər xüsusi məna daşıyır. İrəvan xanlığının tarixinin araşdırılıb tədqiq edilməsi istiqamətində son dövrlərdə yazılmış əsərlərin miqdarının çoxluğu məhz problemin aktuallığından irəli gəlməkdədir.

Tədqiq etdikdə, 2020-2022-ci illərdə İrəvana dair bir çox əsərin yazıldığının şahidi oluruq. Həm kitab formatında, həm dövri nəşr formatında, həm də elektron formada müxtəlif dillərdə bu məsələyə dair ədəbiyyat tapmaq mümkündür.

**Problemin təhlili.** Bu sahəyə dair yazılmış əsərlərdən biri 2020-ci ildə Tural Məmmədov tərəfindən qələmə alınmış "İrəvan xanlığının sosial-iqtisadi münasibətlər və dövlət quruluşu (1747-1828)" adlı monoqrafiyadır. Əsər "Elm və Təhsil" nəşriyyatında 184 səhifədən ibarət buraxılmışdır. Monoqrafiya 3 fəsildən ibarətdir, hər fəsil də yarımfəsillərə ayrılmışdır. Birinci fəsil "Mərkəzi və yerli idarəçilik, inzibati-ərazi bölgüsü və əhalisi" adlanır ki, burada İrəvan xanlığının 1747-1828-ci illərdəki dövlət quruluşundan, mahallar: sərhədlər və idarəçilik sistemindən, İrəvan xanlığının əhalisindən bəhs olunur. İkinci fəsil "Sosial-iqtisadi münasibətlər" adlanır. Burada isə torpaq sahibliyindən, sənətkarlıqdan, ticarətdən, vergi sistemindən bəhs edilir. Üçüncü fəsil isə "XVIII əsrin I yarısı – XIX əsrin əvvəllərində sosial-iqtisadi vəziyyət" adlanır və adından da göründüyü kimi burada Qərbi Azərbaycandakı sosial-iqtisadi həyat barədə məlumatlar toplanmışdır. Monoqrafiya tarixçi alimlər, tələbələr və tarixlə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur [7].

Digər bir əsər Həcər Verdiyeva ilə Cavid Əlizadənin birgə tərtibatçısı olduqları "İrəvan məkanında azərbaycanlılara qarşı etnik təmizləmə: tarixi və hüquqi aspektdə" monoqrafiyasıdır. Bu əsər 2020-ci ildə 218 səhvədən ibarət olaraq nəşr edilmişdir. Monoqrafiyada bir sıra məsələlərə yer verilmişdir ki, bunlara ermənilərin XIX əsrin birinci yarımilliyində Arazdan şimalda olan Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülmələrini, Azərbaycan torpaqlarında erməni vandallarının dinc azərbaycanlılara qarşı törətdikləri soyqırımları və s. məsələləri göstərə bilərik. Üç fəsil və yarımfəsillərdən ibarət olan bu əsərin "Ermə-

nistan Respublikasının ərazisində tarixən yaşayan azərbaycanlılar və onlara qarşı tarix boyu törədilən cinayətlərin determinantları" adlı I fəslində "Ermənilərin İrəvan xanlığına kütləvi köçürülməsi", İrəvan məkanı Rusiya imperiyasının inzibati-idarə sistemində", "XX əsrin əvvəllərində İrəvan quberniyasında erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi zorakılıqlar" və s. altbölmələr yer almışdır. Digər fəsillərdə də ümumən ermənilərin Qərbi Azərbaycan torpaqlarında məskunlaşdıqlarından sonrakı zorakılıqları və cinayətlərini tarixi faktlarla sübuta yetirən dəyərli məlumatlar öz əksini tapmışdır. [11]

2020-ci ildə nəşr edilmiş digər bir kitab isə Teymur Əhmədovun "Azərbaycanın əzəli və əbədi torpağı İrəvan xanlığı (indiki Ermənistan, 4 cilddə)" kitabıdır. 4 cilddən ibarət olan bu kitabın bütün cildləri məhz eyni ildə "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi tərəfindən nəşr edilmişdir. Kitabın birinci cildi 904 səhifə həcmində olub, XIX-XX əsrlərdə Cənubi Qafqazda bəzi qarışıq ictimai-siyasi hadisələr fonunda ermənilərin kütləvi köçürülməsi, erməni problemi kimi məsələlər şərh edilir. Kitabda Azərbaycan şəhəri İrəvanın kameral təsviri, əyalət dəftərinin icmalı verilir, İrəvan xanlığına qarşı erməni mifi və ərazi uydurmaları ifşa olunur. Birinci cilddə

- I Fəsil: İndiki Ermənistan Qədim Azərbaycan torpağıdır;
- II Fəsil: XIX-XX əsrlərdə Cənubi Qafqazda ictimai-siyasi vəziyyət;
- III Fəsil: İrəvan xanlığı adlanan fəsillər yer almışdır. [1]

Kitabın II cildi 796 səhifədən ibarətdir, XIX əsrin əvvəlləri Rusiya-İran müharibəsi zamanı İrəvan qalasının rus işğalçılarına qarşı qəhrəmanlıq mübarizəsi və erməni xəyanəti nəticəsində süqutu, Rusiya imperiyası və erməni dövlətinin yaranması, çarizmin süqutundan sonra daşnak hökumətinin Anadoluda, Təbrizdə, Naxçıvanda və Cənubi Qafqazda azərbaycanlılara, türk-müsəlman əhalisinə qarşı soyqırımı və digər başqa məsələlər zəngin arxiv sənədləri əsasında açılıb göstərilib. Birinci cildin ardı olaraq bu cilddə 4 fəsil yer almış və III fəslin davamı kimi başlanmışdır. Fəsillər aşağıdakı ardıcıllıqla verilmişdir:

- III Fəsil: İrəvan xanlığı;
- IV Fəsil: Millətçi siyasi təşkilatların yaranması və uydurma "Böyük Ermənistan" siyasəti;
- V Fəsil: Cənubi Qafqazda erməni dövlətinin yaranması;
- VI Fəsil: Cənubi Qafqaza köçürülmüş ermənilərin yerli müsəlman xalqlarına qarşı xəyanəti kimi adlarla əks olunmuşdur. [2]
- III cilddə ilk fəsil VII fəsil kimi, yəni II cildin ardı kimi nömrələnir və fəsillərin adları bu cür göstərilir:
- VII Fəsil: Ermənistan sovet hakimiyyəti illərində (1920-1990-cı illər);
- VIII Fəsil: Sovet hakimiyyəti illərində azərbaycanlıların doğma yurdlarından deportasiya edilməsi (1948-1953-cü illər);
- IX Fəsil: Sovet imperiyasının dağılması ərəfəsində rus-erməni hərbi birləşmələrinin köməyi ilə müsəlman əhalisinin Ermənistandan zorla qovulması və soyqırımı.



Kitabın bu cildi 736 səhifədən ibarətdir. [3]

Kitabın son, yəni IV cildi 784 səhifə həcmində olub, digər cildlərin fəsil nömrələmə ardıcıllığı nəzərə alınaraq bu fəsillərdən ibarətdir:

- X Fəsil: Qədim ata-baba ocaqlarından didərgin salınan azərbaycanlıların acı xatirələri, təəssüratları və qədim yurda qovuşmaq inamı;
- XI Fəsil: Tarixin silinməz səhifələri;
- XII Fəsil: Zamanın hökmü qaçılmazdır;
- XIII Fəsil: Dünya ictimai fikri ermənilik haqqında.

Bu cilddə 1918-ci ildə İrəvan xanlığı ərazisinin ermənilərə verilməsinin ictimai-siyasi səbəbləri, ermənilik ideologiyası, qədim ata-baba yurdlarından didərgin salınmış müsəlman əhalisinin ittihamı və digər problemyönlü məsələlər barədə dolğun məlumatlar öz əksini tapmışdır. [4]

Elçin Qarayevin "İrəvan hakimlərinin tarixindən (XV-XIX yüzilliyin əvvəlləri)" kitabı da bu sahəyə dair dəyərli bir mənbədir. Monoqrafiya 2021-ci ildə 232 səhifə həcmində çapdan çıxmışdır. Burada daha çox ilkin mənbələr və arxiv sənədləri əsasında İrəvanda hakimiyyətdə olan hakimlərin şəxsiyyəti, mənşəyi və onların bölgənin iqtisadi-siyasi həyatında oynadıqları rolları haqqında ətraflı məlumatlar əks olunmuşdur. "İrəvan bölgəsinin ərazisi, təbii-coğrafi mövqeyi, iqtisadi və mədəni həyatı haqqında qısa məlumat", "XV-XVIII yüzilliyin ortalarına qədər İrəvanda hakimiyyətdə olmuş hakimlərin tarixindən", "İrəvan xanlığının hakimlərinin tarixindən" adlı fəsillər kitabda yer almışdır. [6]

"İrəvan xanlığının Osmanlı dövləti ilə əlaqələri" əsərində tərtibçi-müəllif Mustafayev Şöhrət İrəvan xanlığının Azərbaycan dövlətçiliyi tarixində yeri və rolunu, Birinci və İkinci Rusiya-İran müharibələri dövründə İrəvan xanlığının Osmanlı dövləti ilə əlaqələrini və s. önəmli məsələlər haqqında ətraflı və dəyərli məlumatlar vermişdir. Monoqrafiyadakı bir çox məsələlər ilkin mənbələr əsasında, o cümlədən Türkiyə Cümhuriyyəti Baş Bakanlığı Osmanlı Arxivinin "Hatti-Humayun" fondunda saxlanılan rəsmi sənədlər əsasında araşdırılmışdır. Kitab 2021-ci ildə 228 səhifədən ibarət olaraq çap olunmuşdur. [8]

Qədim tarixi-mədəni irsimiz olan İrəvan haqqında yazılmış sanballı əsərlərdən biri də "İrəvan necə varsa: keçmişdən bu günə" monoqrafiyasıdır. Kitab Mədəniyyət Nazirliyinin dəstəyi ilə çapdan çıxıb və 2022-ci il oktyabrın 5-də VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində kitabın təqdimatı keçirilmişdir. Kitabda İrəvan qalası haqqındakı rəvayətlərdən, İrəvan şəhərinin salınmasından başlayaraq günümüzə qədər dövrü, onun ətrafında olan məsələlər zəngin arxiv sənədləri, ilkin mənbələr əsasında ictimaiyyətə təqdim edilir. Monoqrafiyada təqdim edilən bütün problemlər Qərbi Azərbaycan tarixi və həmin bölgə üzrə həyatın bütün sahələrinə dair materiallar dairəsində nəzərdən keçirilmişdir və onu daha da unikal mənbəyə çevirmişdir. "Aspoliqraf" MMC-nin mətbəəsində çap olunan bu kitab 520 səhifə həcmindədir. [9]

Ziyad Əmrahovun da "İrəvan quberniyasının tarixi (1850-1917-ci illər)" kitabı tarixi həqiqətləri əks etdirmə baxımından vacib hesab edilir. 2022-ci ildə

çap olunan və 368 səhifədən ibarət olan bu əsərdə İrəvan quberniyasının yaradılmasından, onun tərkibinə daxil olan qəzalardan, əhalisinin say dinamikasından və etnik tərkibindən, təhsil sisteminin vəziyyətindən, dini və sosial tikililərdən, iqtisadi həyatından, inzibati idarələrdən və s. haqqında məlumatlardan əhatəli məlumatlar verilmişdir. [5]

Təkcə Azərbaycan dilində deyil, həmçinin xarici dillərdə də bu sahəyə dair qiymətli nəşrlər çap olunmuşdur. Bu nəşrlərə nümunə olaraq, Bayramov İbrahim və Mustafa Nazimin birgə tərtibatçılığı ilə ərsəyə gələn "The Onomastics of Truth. Renaming and falsification of historical and geographical names in the territory of the present Republic of Armenia" əsərini göstərə bilərik. Bakı nəşriyyatı olan "MaxOfset"də 456 səhifə həcmində çap olunmuşdur. Bu kitabda indiki Ermənistan ərazisində tarixən Azərbaycan türklərinə məxsus olan 1600-dən çox toponimin qəsdən dəyişdirilməsi və saxtalaşdırılmasına və bir çoxlarının qəsdən məhv edilməsinə dair məlumatlar öz əksini almışdır. [12]

Bu kitablardan başqa 2020-ci ildə 590 səhvə həcmində Y. Mahmudovun tərtibatçılığı ilə alman dilində çıxmış "Das Khanat İrevan" əsərini, B.Hüseynovun 2021-ci ildə çap olunmuş "Qarabağın tarixindən səhifələr" kitabını, Ə.Ələkbərli və Ə.Vəliyevin birgə müəllifi olduqları "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz. İndiki Ermənistan Respublikası ərazisində dağıdılmış, adları dəyişdirilmiş, mənimsənilmiş Azərbaycan abidələri" adlı nəşrin 2021-ci ildə çıxmış I cildini, N.Mustafanın 2022-ci ildə nəşr etdirdiyi "Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906)" əsərini və s. nümunə çəkə bilərik.

İrəvan və ümumən Qərbi Azərbaycan torpaqlarına dair məsələlər hər zaman olduğu kimi günümüzdə də ən aktual məsələlərdəndir. Belə ki, bununla əlaqədar olaraq 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin adı 2022-ci il avqustun 3-də dəyişdirilərək "Qərbi Azərbaycan İcmalı" (QAİ) adlanmağa başlamışdır. İcmanın məqsədi müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə Qərbi Azərbaycan torpaqlarından kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların hüquqlarının beynəlxalq müstəvidə bərpası və Qərbi Azərbaycan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ olunması və tam məhv olunmasının qarşısının alınmasıdır. [13]

**Nəticə**. Buradan da aydın olur ki, beynəlxalq müstəvidə artıq Qərbi Azərbaycan torpaqlarına, İrəvana dair sənədlər araşdırılaraq onlarda əks olunan həqiqətlər dünya ictimaiyyətinə çatdırılır. Məhz bununla əlaqədar olaraq, 24 dekabr 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycan İcmasının binasında yaradılan şəraitlə tanış olduqdan sonra söylədiyi nitqdə demişdir: *"Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıqlar göstərmişdir. Ancaq buna baxmayaraq, tarixin müxtəlif vaxtlarında bizim xalqımız öz doğma torpaqlarından məhrum edilmişdir. XX əsr bu baxımdan xalqımız üçün çox böyük faciələr gətirmişdir. 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti – İrəvanı Ermənistana faktiki olaraq bağışlamışdır. Bu, bağışlanmaz bir addım idi, bu, xəyanət idi və cinayət idi. Bunu biz hamımız yaxşı bilirik, xalqımız da bunu bilməlidir. Biz heç vaxt tariximizi təhrif etməməliyik."* [13]

Beləliklə, İrəvan xanlığının tarixinə həsr olunmuş mənbələri araşdırarkən məlum olur ki, əvvəlki illərə nisbətən son 10 ildə daha çox ilkin resurslar artmağa başlamışdır və işıq üzü görən ilkin mənbələrdən bir çoxu kitablardır. Bu kitabların hər biri tarixi sənəd kimi çox qiymətli və əhəmiyyətlidir.

Ümumiyyətlə, İrəvan xanlığına dair ilkin mənbələr mövzu ilə əlaqədar ikinci dərəcəli informasiya resursların yaranmasında xüsusi çəkiyə malik olmaqla, bəhs etdiyimiz mövzu ilə əlaqədar informasiya təminatında mühüm rol oynayır. Müstəqillik illərində Azərbaycanda tarix elminin, o cümlədən, İrəvan xanlığının hərtərəfli tədqiqi, eləcədə, bu elmin informasiya təminatının araşdırılması aktuallıq kəsb edərək ön sıralarda durur.

**Ədəbiyyat:**

***Azərbaycan dilində***


1. Əhmədov T. Azərbaycanın əzəli və əbədi torpağı İrəvan xanlığı (indiki Ermənistan, 4 cilddə): C.1.. Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020. – 904 s.
2. Əhmədov T. Azərbaycanın əzəli və əbədi torpağı İrəvan xanlığı (indiki Ermənistan, 4 cilddə): C.2.. Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020. – 796 s.
3. Əhmədov T. Azərbaycanın əzəli və əbədi torpağı İrəvan xanlığı (indiki Ermənistan, 4 cilddə): C.3.. Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020. – 736 s.
4. Əhmədov T. Azərbaycanın əzəli və əbədi torpağı İrəvan xanlığı (indiki Ermənistan, 4 cilddə): C.4.. Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020. – 784 s.
5. Əmrahov Z. İrəvan quberniyasının tarixi (1850-1917-ci illər). Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2022.- 368 s.
6. Qarayev E.T. İrəvan hakimlərinin tarixindən (XV-XIX yüzilliyin əvvəlləri). Bakı, 2021. – 232 s.
7. Məmmədov T.S. İrəvan xanlığının sosial-iqtisadi münasibətlər və dövlət quruluşu (1747-1828). Bakı: Elm və Təhsil, 2020. – 184 s.
8. Mustafayev Ş.R. İrəvan xanlığının Osmanlı dövləti ilə əlaqələri. Bakı: Elm və Təhsil, 2021. – 228 s.
9. Nurəddin. İrəvan necə varsa: keçmişdən bu günə (Qədim yurd yerimizin tarixi-mədəni irsi haqqında kitab) // Mədəniyyət. 2022, 7 oktyabr. – s.1.4
10. Sadıqova S.A. Sosial-siyasi informasiya resursları: Dərs vəsaiti. Bakı: Mütərcim, 2016. – 126 s.
11. Verdiyeva H.Y., Əlizadə C.Ş. İrəvan məkanında azərbaycanlılara qarşı etnik təmizləmə: tarixi və hüquqi aspektdə. Monoqrafiya. Bakı, 2020. – 218 s.


***İngilis dilində***


12. Bayramov İ., Mustafa N. The Onomastics of Truth. Renaming and falsification of historical and geographical names in the territory of the present Republic of Armenia. Baku: "MaxOfset", 2022.- 456 p.


***Elektron resurslar***


13. http://president.az/az/articles/view/58330

**С.Садыгова**
**З.Мамедова**

**Исследование книжных средств по истории Иравана, древней земли Азербайджана (2020-2022гг.)**

**Резюме:** *Статья посвящена исторической науке, которая является одним из важных компонентов системы общественно-политических наук, и изучению информационных ресурсов об Иреванском ханстве, которая является отраслью исторической науки. Говоря об информационных ресурсах, в первую очередь анализировались первичные информационные ресурсы, то есть книги. Было отмечено, что одним из таких информационных ресурсов являются первоисточники, посвященные истории Иреванского ханства, являющегося неотъемлемой частью азербайджанской государственности. Прежде всего, основное место в формировании документально-информационной массы определенной сферы деятельности, особенно науки, занимают первичные документальные источники информации. Если посмотреть на исторический путь развития первоисточников об Иреванском ханстве в Азербайджане, то более интенсивный поток этих источников усилился после восстановления независимости нашей республики. Был дан анализ ряда первоисточников информации, посвященных Иревани, одной из древних земель Азербайджана, и предпочтение было отдано большему количеству книг. В качестве объекта исследования были рассмотрены книжные ресурсы по Иреванскому ханству, изданные в 2020-2022 гг., и сделан вывод о том, что многие историки создали в рассматриваемый период весьма значительные и содержательные труды в этой области. В большинстве этих произведений многие факты, искаженные армянскими историками и писателями, наглядным образом прояснены и интерпретированы. Хотя не все книги, изданные в упомянутый в статье период, могут быть охвачены, анализ наиболее ценных за этот период отражен широко и всесторонне.*

***Ключевые слова**: общественно-политические ресурсы, Иреванское ханство, первоисточники, документооборот, информационное обеспечение*

**S. Sadigova**
**Z. Mamedova**

**Study of book resources on the history of Iravan, the ancient land of Azerbaijan (2020-2022)**

***Abstract:*** *The article is devoted to historical science, which is one of the important components of the system of socio-political sciences, and the study of information resources about the Iravan Khanate, which is a branch of historical science. Speaking about information resources, first of all, primary information resources, that is, books, were analyzed. It was noted that one of such information resources is the primary sources on the history of the Iravan Khanate, which is an integral part of the Azerbaijani statehood. First of all, the main place in the formation of the documentary-informational mass of a certain field of activity, especially science, is occupied by primary documentary sources of information. If you look at the historical path of development of primary sources about the Irevan Khanate in Azerbaijan, then a more intense flow of these sources increased after the restoration of the independence of our republic. An analysis was given of a number of primary sources of information on Irevan, one of the ancient lands of Azerbaijan, and preference was given to more books. As an object of study, book resources on the Irevan Khanate published in 2020-2022 were considered, and it was concluded that many historians created very significant and meaningful works in this area during the period under review. In most of these works, many of the facts distorted by Armenian historians and writers are clearly clarified and interpreted. Although not all books published during the period mentioned in the article can be covered, the analysis of the most valuable for this period is reflected broadly and comprehensively.*

***Key words:*** *socio-political resources, Irevan Khanate, primary sources, document management, information support.*

***Rəyçi:*** *p.ü.f.d., dos.* ***N.İ.İsmayılov***